# “Uluçay” Sosial-İqtisadi İnnovasiya Mərkəzi

# COVID-19 və Qadın Hüquqları.

# Şəki – Zaqatala Bölgə Analizi

2020

Tural Yusifzadə

## 1. GİRİŞ VƏ İCMAL

COVID-19 pandemiyası mövcud bərabərsizliklərin dərinləşməsinə, sosial, siyasi və iqtisadi sistemlərdəki çatışmazlıqların daha qabarıq olmasına və epidemiyanın təsirlərinin daha dərindən hiss olunmasına səbəb olur (Headquarters, 2020). COVID-19 yayıldığı gündən bəri, gələn məlumatlar və hesabatlar qadın və qızlara qarşı bütün növ şiddətlərin, xüsusən də məişət zorakılığının şiddətləndiyini göstərdi. Bu, COVID-19 böhranı arasında böyüyən Kölgə Pandemiyasıdır (UN, 2020) və qadınların iş həyatındakı və milli mentalitetdən qaynaqlanan cəmiyyətdəki yeri Kölgə Pandemiyasının anlanmasında mühüm əhəmiyyət kəsb edir.

İnkişaf etməkdə olan ölkələrdə, qadın məşğulluğunun 70%-i qeyri-rəsmi iqtisadiyyatın tərkibindədir (Headquarters, 2020). Qeyri rəsmiliyin bu dərəcədə yüksəkliyi, pandemiyanın iqtisadi təsirlərini azaltma məqsədli dövlətlərin, mövcud dövr ərzindəki işdən çıxarılmanın bloklanması və bənzəri siyasətlərini təsirsiz edir. Nəticə olaraq, bir sıra ölkələrdə ilk işdən çıxarılma xidmət sektorunda, xüsusilə qadın işçilərin üstünlük təşkil etdiyi pərakəndə satış və turizm sektorlarında görülür (Headquarters, 2020).

İşdən çıxarılmanın nəticəsi olan maddi maneələr, bir qadının davranışlarının məhdudlaşmasında mühüm rol oynayır. Mali qeyri-sabitlik qadınların, uşaqlarının keçimini təmin etmək səbəbi ilə şiddətə səs çıxara bilməməsinə yol açır (Conner, 2014). Pandemiya səbəbli ailə və sosial dəstək mərkəzlərinin fəaliyyətlərindəki axsamalar, cəmiyyətin qadın şiddətinə baxışı və ya boşanma hallarında qanunla tənzimlənən alimentin maddi yetməzliyi bu şiddətlərin artmasında mühüm təsir yaradır.

Bu siyasət notu COVID-19 pandemiyasının qadın iqtisadiyyatına təsirini və onun nəticəsi olan qadın haqlarında və cinsiyyət bərabərsizliyində meydana çıxan mənfi təsirlərin araşdırılması üçün edilmişdir. Siyasət notu üzrə, qadınların maliyyə müstəqilliyini əldə etmələrinin, qadın hüquqlarını ciddi ölçüdə artırdığı ön plana çəkilmişdir. Həll yolunda davamlı inkişaf hədəfləri əsas alınaraq iqtisadiyyatda qadınların payının və hüquqlarının artırılması təklif olunur.

## 2. COVID-19 PANDEMİYASININ QADIN HÜQUQLARINA TƏSİRİ

COVID-19 pandemiyasının yol açdığı evdən iş və tədris stukturası ailə içindəki məsuliyyətlərin də artmasına yol açır. Kariyera quran qadınların evdən işləməsi, uşaqlarının uzaqdan təhsilinə köməklik göstərməsi və eyni zamanda ev işlərini üstlənilməsi onların iş həyatındakı effektivliyinə mənfi təsri göstərir. Bu cür təsirlər qadınların işçi qüvvəsində iştirakında yaratdığı həssas qazancların itirilməsinə səbəb olur (Headquarters, 2020). Bununla yanaşı, Birləşmiş Millətlər Qadın komitəsinin yayınladığı üzrə qadınların 70%-i qeyri-rəsmi olaraq işləməktədir və ən sadə krizis hallarında işlərini itrimə ehtimalı olduqca yüksəkdir. Pandemiyanın yol açdığı ilk işdən çıxarılmaların da bu cəbhədən gəlməsi, cinsiyyət bərabərsizliyinin və qadınların kariyera hüquqlarının pozulmasının mühüm göstəriciləridir.

Qafqaz regionunda qadınlar arasında özünüməşğulluq yüksək səviyyədədir, bu, kənd təsərrüatı ilə əlaqədar olaraq "ailə işçisi" olma ilə əlaqələndirilir (Khitarishvili). Bu terminə məişət işlərinin öhdəlikləri ilə bərabər, təsərrüfat məhsul yığımı və onların qeyri-sənaye emalı da daxildir. Təsərrüfat sahəsi ciddi zərər görməsə də, qeyri-sənaye emalı yəni, məhsulların qışlıq istifadəsi üçün konservləşdirilməsi, süd məhsulları, kompot, turşu və bənzəri (işlənmiş qida) olaraq hazırlanma prosesi pandemiyanın təsirinə məruz qalmışdır. Xeyir və şər işlərinin tamamən qadağan olunması, rayonlarla böyük şəhərlər arasında qeyri-ticari nəqliyyat əlaqələrinin kəsilməsi bu məhsullara olan tələbi böyük ölçüdə azaltmışdır. Rəsmi olmayan istehsal prosesi və lisenziyasız olaraq əldə edilən nəhai işlənmiş qidalar, istehsal edildiyi regionun xaricinə çıxa bilmədiyi üçün satış üçün bazar tapa bilməmiş və istehsal əhəmiyyətli ölçüdə azalmışdır.

Xeyir və şər işlərinin qadağan edilməsi, restoran və kafelərin bağlanması, qeyri-rəsmi işsizliyin yüksək olduğu gözəllik salonu işçilərinə, təmizlik işçilərinə, aşbaz xanımlara da cidi təsir etmişdir. Pandemiyanın davamı nəzərə alındığında, bu sektorlardakı gəlirsizliyin davamı qaçınılmaz hal alır. Nəticə olaraq qadınların qeyri-rəsmi iş həyatı, istər pərakəndə satış və ya turizm kimi sektorlardakı işçi ixtisarları, istərsə də fərdi əmək məhsullarının satışındakı

tənəzzül ilə pandemiyanın mənfi təsirinə məruz qalmışdır. Bu təsir qadınların maddi müstəqilliyini aradan qaldırmışdır.

Pul, güc və məişət zorakılığı müxtəlif yollarla kəsişirlər (Conner, 2014). Cəmiyyətlərdə hakim olan ideologiya görə, xanə içindəki güc xanəyə gələn gəlir tərəfindən müəyyənləşdirilir. Digər bir ifadə ilə pul = güc. Pandemiyanın həm kariyera həyatındakı, həm də şəxsi gəlirlərinin azalmasındakı təsirləri, qadınların ailə içindəki ifadə azadlığının və hüquqlarının pozulmasına səbəb olur. Bu hüquq pozulması qadınlara qarşı şiddətin artmasında əsas amillərdən biri olaraq qəbul olunur.

## 3. TÖVSİYƏLƏR

Qadın sahibkarlığına dair ədəbiyyat, qadınları işgüzar fəaliyyətə təşviq edən iki amil təklif edir: çəkmə və itələmə faktorları. Çəkmə faktorları, savadlı, yaradıcı iş fikirləri ilə yanaşı iş təcrübəsi və müstəqil olmaq istəyi olan qadınları əhatə edir. İtələyici amillər, ailələrini təmin etmək zərurəti və ehtiyacları səbəbindən biznesi itələyən maddi cəhətdən sıxıntılı qadınlar üçün hərəkətverici qüvvə rolunu oynayır (Yuliya Aliyeva, Bayaz Zeynalova, 2016). Bu kategoriyadakı qadınların gəlir əldə etmək imkanı sadəcə şəxsi əmək məhsullarının satışı ilə yaranır.

- Azərbaycan Statistika Komitəsinin 2020 may ayı məlumatlarına əsasən Şəki – Zaqatala regionu üzrə fərdi sahibkarların 11687-i qadın, 43027-i kişilərdən ibarətdir.[1] Sahibkarlıq arasındakı ciddi fərqin azalması adına qadın sahibkarlara güzəştli[2] kreditlər verilməlidir (Qadın sahibkar İ.Səfərli).
- Zəruri olduğu halda bənzər əmək məhsullarının istehsal və satışı ilə məşğul olan qadınlar yerli və ya xarici qurumlar tərəfindən fonlanacaq ortaq bir mərkəzdə toplanmalı, lisenziya sahibi olaraq həm yerli, həm də xarici bazara açılmalıdır.

[1] Azərbaycan Statistika Komitəsi, 21.04.2020, https://www.stat.gov.az/source/gender/?lang=az

[2] Güzəştlər müsbət ayrıseçkilik (affirmative action) diqqətə alınaraq edilməlidir. Maliyyəti azaltmaq və kreditin mövcudluğunu artırmaq üçün bir kredit zəmanəti fondu sxemi inkişaf etdirilə bilər. Bu, həm də mülkləri olmayan bir çox qadın üçün ticarət kreditlərini əlçatmaz edən girov tələbini azaltmağa kömək edəcəkdir. Əlavə məlumat üçün baxıla bilər "Yuliya Aliyeva, Bayaz Zeynalova, 2016", səh 75.

Pandemiyanın, peşə və şəxsi həyat arasındakı tarazlıq və qadınların iqtisadi müstəqilliyi üzərindəki mümkün uzunmüddətli təsirlərinə də diqqət yetirilməlidir, çünki bu, onların çoxunu çətin seçimlər etməyə və ödənişsiz işə (ev qadını) keçməyə məcbur edir (Women's rights and the COVID-19 pandemic, tarixsiz). Maddi müstəqilliyin itməsi isə məişət zorakılıqlarının artması ilə nəticələnir.

- Sağlam hüquqlu və bərabərsizliyin minimum həddə endiriləcəyi gələcək üçün, qadın hüquqları ilə bağlı məktəb dərslikləri yenidən formalaşdırılmalıdır.
- Pandemiyanın qadın hüquqlarına mənfi təsirini aradan qaldırmaq üçün qadın hüquqları dəstəkləmə quruluşları yaradılmalıdır. Bu quruluşlar ailə daxili şiddətin qarşısına keçmə adına yerli hüquq mühafizə orqanları ilə sıx əlaqədə olmalıdır.
- Boşanma hallarında uşaqların keçimini təmin etmək adına qanunla nizamlanan aliment miqdarı və mülk dağılımı qadınları şiddətə göz yumdurmayacaq səviyyədə yenidən hesablanmalıdır.

1980-ci illərdən etibarən insan sərmayəsi əksikliyi, gəlir, cinsiyyət və bənzəri bərabərsizliklərinin iqtisadiyyata ciddi mənfi təsiri əhəmiyyət qazanmışdır (Becker, 1993). 2020-ci ildə eyni mövzuların gündəmdə qalması məsələnin həlli üçün daha çox işləmənin zəruriliyini vurğulayır. Qadınların insan sərmayəsindəki yeri və hüquqi bərabərliliyinin tam təmin edilməsi sağlam iqtisadiyyat və cəmiyyət üçün təxirə salınamayacaq dərəcədə vacibdir.

# İstinadlar


Becker, G. S. (1993). *Nobel Lecture: The Economic Way of Looking at Behavior.* Journal of Political Economy.

Conner, D. H. (2014). *Financial Freedom: Women, Money, and Domestic Abuse.* Widener University School of Law.

Headquarters, U. W. (2020). *The Impact of COVID-19 on Women.* UN Women Headquarters.

Khitarishvili, T. (n.d.). *Cənubi Qafqaz və Qərbi MDB ölkələrində cinsiyyət və məşğulluq.* UNDP.

UN. (2020). *The Shadow Pandemic: Violence against women during COVID-19*. Retrieved from UN Women: https://www.unwomen.org/en/news/in-focus/in-focus-gender-equality-in-covid-19-response/violence-against-women-during-covid-19

*Women's rights and the COVID-19 pandemic*. (n.d.). Retrieved from Council of Europe: https://www.coe.int/en/web/genderequality/women-s-rights-and-covid-19

Yuliya Aliyeva, Bayaz Zeynalova. (2016). *WOMEN ENTREPRENEURSHIP POLICY ASSESSMENT AND WOMEN ENTREPRENEURS STAKEHOLDER SURVEY.* Baku: GIZ.